

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 03 - mart 2020



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

QANUNÇULUQ
hüquq jurnalı

№ 03 - mart 2020

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**



**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki ....................4
8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ....................8



## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Məhkəmə fəaliyyəti müasirləşdirilir ....................9
Mart soyqırımı qurbanlarının xatirəsi heç zaman unudulmur ....................11
Ədliyyə işçiləri və hakimlər Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr ediblər ....................12
Qlobal pandemiya olan koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması üzrə qəti tədbirlər görülür ....................12
Ədliyyə nazirinin müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər ....................16
"Mobil notariat"ın yeni "Vəkilə verilən etibarnamələr" funksiyası istifadəyə verilib ....................17
Ədliyyə Akademiyasında ....................17
Naxçıvan Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi müasir avadanlıqlarla təchiz olunub ....................18

## MƏQALƏ

Laləzar Əlizadə. Könüllülük insansevərlik, vətənsevərlik, əməksevərlik göstəricisidir ....................19

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 963 nömrəli Fərmanı ....................22

# YENİ QANUNLAR, FƏRMANLAR...

Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası ....22
"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli Qanunu ....23
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 28-VIQD nömrəli Qanunu ....24
"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ....25

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1855 Tiraj:1100 ədəd

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki



-Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram. Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl bayramı qeyd edir.

Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür. Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir.

İlin əvvəlindən görülmüş işlər ölkəmizin uğurlu inkişafını bir daha təsdiqləyir, Azərbaycan müasirləşir, yeniləşir. Azərbaycanda aparılan islahatlar demək olar ki, bütün sahələri əhatə edir. 2019-cu ildə aparılan islahatlar iqtisadi sahədə böyük dəyişikliklərə səbəb oldu. Məhz şəffaflıq prinsiplərinin tətbiqi nəticəsində dövlət büdcəsinə 1 milyard manatdan çox vəsait daxil edildi və bu vəsait son qəpiyinə qədər insanların sosial problemlərinin həllinə istiqamətləndirildi. Bildiyiniz kimi, keçən il Azərbaycanın 4,2 mil-

yon vətəndaşı dövlət tərəfindən görülmüş tədbirlər nəticəsində öz maddi vəziyyətini yaxşılaşdırdı, maaşlar, pensiyalar, sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır. Bu istiqamətdə bundan sonra da işlər aparılacaq. 2020-ci ilin ilk iki ayı onu göstərir ki, bu istiqamətdə əlavə tədbirlərin görülməsi mümkün olacaqdır.

İlin əvvəlindən ölkəmizdə proseslər müsbət istiqamətdə gedir, Azərbaycanda sabitlik, təhlükəsizlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir, vəhdətidir. Bu birlik özünü bir daha parlament seçkilərində göstərmişdir. Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisədir. Parlament seçkiləri ölkəmizdə aparılan siyasətin xalq tərəfindən yüksək qiymətləndirildiyini bir daha ifadə etdi. Parlament seçkilərində Azərbaycan xalqının iradəsi öz əksini tapdı və Azərbaycan cəmiyyəti bu seçkilərin nəticələrindən məmnun qaldı.

Yeni parlamentin qarşısında duran vəzifələr haqqında mən parlamentin ilk iclasında öz sözlərimi demişəm. Əlavə etmək istərdim ki, parlamentin tərkibi yenidən formalaşdı və ilk dəfə olaraq parlamentin rəhbərliyində müxalifət nümayəndələri də yer aldı. Eyni zamanda, parlament komitələrinin rəhbərliyində də müxalifət nümayəndələri təmsil olunur. Bu, ölkəmizin tarixində ilk dəfə baş verən hadisədir və bir daha onu göstərir ki, bizim niyyətimiz çoxpartiyalı sistemin təkmilləşdirilməsidir. Sirr deyil ki, parlamentdə səslərin çoxluğu Yeni Azərbaycan Partiyasına məxsusdur. Əlbəttə, Yeni Azərbaycan Partiyasının razılığı olmadan bu islahatlar aparıla bilməzdi. Bu, onu göstərir ki, bu istiqamətdə atılan addımlar ölkəmizin gələcək uğurlu inkişafına müsbət təsir edəcək və ölkəmizdə siyasi sistemin yeni konfiqurasiyası formalaşır.

Eyni zamanda, Prezident Administrasiyası bütün siyasi partiyalara dialoq təklifi etmişdir. Bu da çox ciddi addımdır. Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı tarixdə olmadığı qədər güclüdür. Biz hesab edirik ki, güclü ilk addımı atmalıdır, ilk təklifi verməlidir və belə demək mümkündürsə, yolunu azmışlara da yol göstərməlidir. Yəni, biz bunu etdik və şadam ki, siyasi spektrin mütləq əksəriyyəti bu təşəbbüsə müsbət reaksiya vermişdir, faktiki olaraq siyasi dialoq artıq başlamışdır. Əminəm ki, bunun nəticələri də xalqımız üçün və ölkəmizin gələcək inkişafı üçün müsbət olacaqdır. O ki qaldı, bu dialoqdan imtina edən qruplaşmalara, onlar özləri bilərlər. Hər halda mən demişəm, bir daha demək istəyirəm, uduzan tərəf biz olmayacağıq və yeni siyasi konfiqurasiyada satqın, xain beşinci kolonun nümayəndələrinə yer olmayacaq. Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, beşinci kolonun nümayəndələrindən təmizlənir və təmizlənməlidir. Eyni zamanda, Azərbaycan xalqı yaxşı görür ki, xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da mübarizə aparılacaqdır. Son hadisələr, bu istiqamətdə atılan addımlar bunu bir daha göstərir.

İlin əvvəlindən bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Mənim xarici tərəfdaşlarımla ikitərəfli formatda keçirilmiş görüşlər bir daha onu göstərdi ki, Azərbaycanın dünyada çox böyük hörməti var və bizim siyasətimizə böyük rəğbət var. Eyni zamanda, beynəlxalq tədbirlərdə mənim iştirakım ölkəmizin mövqelərini daha da gücləndirdi. Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumu dünyanın bir nömrəli siyasi və iqtisadi forumudur. Dünyanın siyasi və biznes elitası bu forumda iştirak edir. Mən bu forumda ardıcıl olaraq uzun illərdir ki, iştirak edirəm və hər bir iştirak ölkəmizə yeni dividendlər gətirir, həm siyasi, həm iqtisadi. Bu dəfə bir daha əmin oldum ki, Azərbaycanda gedən proseslərə böyük maraq var. Bütün tərəfmüqabillərim demək olar bir məsələni qeyd edirdilər ki, Azərbaycan sabit ölkədir və bu gün qeyri-sabit bölgədə, qeyri-sabit dünyada sabitliyi qorumaq böyük məharət və siyasi səriştə tələb edir. Sabitliyin mövcudluğuna görə Azərbaycana sərmayə qoyuluşu da təmin edilir. Keçən il 13,5 milyard dollar xarici sərmayə qoyulubdur, bu ilin yanvar ayında bərpaolunan enerji növlərinin yaradılmasına yönəlmiş 440 milyon dollar xarici sərmayənin qoyuluşu ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümumiyyətlə, Davos İqtisadi Forumunda bizim iştirakımız çox uğurlu olub. Davos Ümumdünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzi məhz Azərbaycanda yaradılacaq. Bu mərkəz Qafqaz-Orta Asiya məkanını əhatə edəcəkdir və müvafiq sənəd də imzalanmışdır. Bu, bir daha bizim güclü mövqelərimizi ifadə edir.

Eyni zamanda, hesab edirəm ki, dünyada təhlükəsizlik sahəsində digər bir nömrəli konfrans Münxen Təhlükəsizlik Konfransıdır. Bu konfransda da mən müntəzəm olaraq iştirak edirəm və hər dəfə Azərbaycan həqiqətlərini geniş auditoriyaya çatdırıram. O cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, haqlı olduğunu və tarixi aspektləri çatdırıram. Bu dəfə isə daha gözəl fürsət yaranmışdır, Azərbaycan xalqının və dünyanın gözü qarşısında Azərbaycan öz üstünlüyünü bir daha ifadə etmişdir. Tarixi həqiqət, beynəlxalq hüququn normaları bizim tərəfimizdədir. Münxen Təhlükəsizlik Konfransında Ermənistanın və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdur. Demək olar ki, onların təbliğatı sübutlar, tarixi faktlar, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr və qərarlar əsasında darmadağın edilmişdir. Hesab edirəm ki, bu sarsıdıcı zərbə erməni təbliğatının sonudur. Münxen Təhlükəsizlik Konfransının auditoriyası kifayət qədər genişdir. Azərbaycan və Ermənistan rəhbərlərinin canlı debatının ilk dəfə keçirildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu debatlara çox böyük maraq var idi və milyonlarla insan bu debatları həm canlı formatda, həm də ondan sonra izləyə bilmişdir. Ona görə bizim haqq işimiz bir daha öz təsdiqini tapdı və bütün dünya bir daha gördü ki, - mən bunu Valday Forumunda da canlı efirdə demişdim, - Qarabağ Azərbaycandır və nida işarəsi.

Bu il iqtisadi sahədə əldə edilmiş uğurlar əlbəttə ki, bizi çox sevindirir. İki ayda ümumi daxili məhsul 2,8 faiz artmışdır. Qeyri-neft sektorunda iqtisadiyyat 6,7 faiz artmışdır. Qeyri-neft sektorunda sənaye istehsalı 21,7 faiz artmışdır. Əhalinin pul gəlirləri 9 faiz artmışdır, inflyasiya isə cəmi 2,8 faizdir.

Yenə də islahatlar hesabına və şəffaflıq tədbirlərinin görülməsi nəticəsində iki ayda dövlət büdcəsinə proqnozdan əlavə 252 milyon manat daxil edilmişdir. Bu, bir daha onu göstərir ki, şəffaflıqla bağlı görülən tədbirlər, kölgə iqtisadiyyatına qarşı aparılan siyasət öz nəticəsini verməkdədir. Əminəm ki, bu müsbət meyil ilin sonuna qədər davam edəcək və Azərbaycan iqtisadiyyatının hazırda kölgədə olan hissəsi kölgədən çıxacaq. Burada təkcə dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməlidirlər, öz fəaliyyətini kölgədən çıxarmalıdırlar və dövlətin vergisini son qəpiyinə qədər ödəməlidirlər. Çünki bilməlidirlər ki, bu vergilər insanların maaşlarının, pensiyalarının artırılmasına istiqamətləndirilir.

Bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur. İlin əvvəlindən üç böyük xəstəxana mənim iştirakımla açılmışdır - Goranboy, Şəmkir və Qazax şəhərlərində. Yenə də xəstəxanaların açılması nəzərdə tutulur və sosial infrastrukturun yaradılması istiqamətində işlər aparılacaqdır. Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcək. Baxmayaraq ki, keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulan büdcə xərclərimiz kifayət qədər artmışdır, ancaq bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuş 7 min mənzil tikilib istifadəyə veriləcək. Şəhid ailələri üçün nəzərdə tutulan 1500 mənzil tikilib istifadəyə veriləcəkdir. Bu məsələ ilə bağlı heç bir şübhə olmamalıdır. Əminəm ki, biz 2020-ci ili də uğurla başa vuracağıq. Halbuki bu gün bir çox ölkələr böyük çətinliklərlə üzləşiblər. Bu ölkələrdə həm siyasi sabitlik pozulur, həm iqtisadi böhran yaşanır və o cümlədən neft hasil edən ölkələrin bəziləri artıq neftin qiymətinin düşməsindən əziyyət çəkməyə başlayıblar. Koronavirus xəstəliyi əlbəttə ki, vəziyyəti çətinləşdirir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycan bu sınaqdan da şərəflə və az itkilərlə çıxacaq. Buna nail olmaq üçün biz hamımız həmrəylik göstərməliyik, məsuliyyət göstərməliyik, birlik göstərməliyik. Dünya üçün bu çətin dövrdə həm xalqımızı, həm dövlətimizi qorumaq üçün xalqımızın ən ülvi xüsusiyyətlərini bir daha göstərməliyik və bunu dünyaya təqdim etməliyik.

Bildiyiniz kimi, koronavirus xəstəliyi dünya gündəliyinin bir nömrəli məsələsidir. Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiya elan edibdir və bəyan edibdir ki, pandemiyanın mərkəzi Avropa məkanıdır. Bu xəstəliyin geniş yayılması onu göstərir ki, hətta inkişaf etmiş ölkələr onun qarşısını ala bilmirlər. Bu xəstəliyə qarşı heç bir dərman, vaksin yoxdur və nə vaxt olacaq, heç kim bilmir. Ona görə bu xəstəliyin məhdudlaşdırılması və yayılmaması

üçün biz bəri başdan, ən ilk günlərdən praktik addımlar atmağa başlamışıq. Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Ciddi tədbirlər görülmüşdür. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə yanvarın 24-dən yeni əməkdaşlıq formatı çərçivəsində işləməyə başlamışıq. Onları ölkəmizə dəvət etmişik. Onların tövsiyələrinə riayət edərək ölkəmizdə çox ciddi tədbirlər görmüşük. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri mart ayında Azərbaycana gələrək, vəziyyətlə tanış olaraq bildirdilər ki, Azərbaycan rəhbərliyi koronavirusun yayılmaması üçün çox önəmli və təsirli tədbirlər görür. Bu, həqiqətən də belədir.

Bildiyiniz kimi, bütün uşaq bağçaları, məktəblər, ali məktəblər bağlandı. Kütləvi tədbirlərin keçirilməsi qadağan edildi. Martın 14-dən xüsusi davranış qaydaları tətbiq edildi və ictimaiyyətə bu məsələ ilə bağlı kifayət qədər məlumat verilir. Xəstəliklə, onun yayılması və nəticələri ilə bağlı mənim göstərişimlə vətəndaşlara müntəzəm olaraq bütün məlumatlar verilir. Karantin tədbirləri görülür, yeni laboratoriyalar alınıbdır. Qısa müddət ərzində ən müasir dörd laboratoriya alınıb gətirilib və hazırda bizim laboratoriyalarımızın sayı 10-a çatıb. Lazım olarsa, əlavə laboratoriyalar alınacaqdır. On xəstəxana xüsusi rejimdə işləyir. Bu xəstəxanalar ölkəmizin müxtəlif bölgələrində yerləşir, o cümlədən Bakı şəhərində. Bu xəstəxanalarda həm xəstələrin müalicəsi aparılır və həm də karantin tədbirləri görülür.

Bir çox ölkələrlə gediş-gəliş artıq məhdudlaşdırıldı, demək olar ki, tamamilə aradan qaldırıldı. Bir çox aviareyslər ləğv edildi, sərhədlərimizin bağlanması istiqamətində əməli addımlar atıldı, elektron vizaların verilməsi dayandırıldı və xəstəliyin geniş yayıldığı ölkələrdən Azərbaycana insanların gəlməsi qadağan edildi. Bütün bu tədbirlər əminəm ki, öz müsbət təsirini göstərəcək. Bizim əsas məqsədimiz bu xəstəliyin Azərbaycanda yayılmamasıdır. Buna nail olmaq üçün təkcə dövlət tərəfindən görülən tədbirlər kifayət deyil. Dövlət nə lazımsa edir, vəsait ayırır. Martın əvvəlində bu xəstəliklə mübarizə üçün 10 milyon manat vəsait ayrıldı. Bu gün bəyan edirəm, Prezidentin ehtiyat fondundan əlavə 20 milyon manat ayrılacaq ki, həm bu xəstəliyə qarşı mübarizə daha təsirli olsun, eyni zamanda, koronavirus xəstələrinə qulluq edən həkimlərin maddi təminatı daha da yüksək olsun. Biz bunu da nəzərə alırıq. Mən bir daha Azərbaycan həkimlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bu xəstəliyə qarşı fədakarcasına mübarizə aparırlar, öz sağlamlıqlarını risk altına atırlar. Ancaq yüksək məsuliyyət, içdikləri and əlbəttə ki, onları bu işlərə sövq edir. Xəstələr də həkimlərə böyük diqqətlə yanaşmalıdırlar. Bu, indiyədək dünyada görünməmiş xəstəlikdir və bu xəstəliyin yayılması templəri də bizə bəlli deyil. İnkişaf etmiş bir neçə ölkədə artıq bu xəstəlik bir-iki gün ərzində geniş vüsət alır. Bu, onu göstərir ki, xəstəliyin sanki akkumulyasiya dövrü vardır, ondan sonra bu xəstəlik geniş yayılır. Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməlidir, dərhal özünü təcrid etməlidir, kütləvi yerlərə getməməlidir, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir. Hər kəs bilsin, əgər martın 14-də elan olunmuş qaydalara kimsə əməl etməsə, çox ciddi məsuliyyətə cəlb ediləcək.

Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir, həmin o beşinci kolondan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik hələ bilinmir nəyə gətirib çıxaracaq. Ona görə bu xəstəlik dövründə

tamamilə yeni münasibətlər qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu beşinci kolonun nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaq. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, beşinci kolon, milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər. Hər kəs bunu bilsin. Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.

Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaq. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq.

Bir daha əziz xalqımı bu gözəl bayram münasibətilə təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınları tariximizin hər bir dövründə cəmiyyətin mənəvi dayağı olmuşlar. Xalqımızın əsrlər boyu təşəkkül tapmış zəngin milli mədəni sərvətlərinin hifz edilməsində və ali bəşəri keyfiyyətlərin nəsildən-nəslə ötürülməsində onların misilsiz xidmətləri vardır.

Yeni cəmiyyət quruculuğu şəraitində ictimai fəallıqlarını gücləndirərək sosial-mədəni həyatda yaxından iştirak etmələri Azərbaycan qadınlarının yüksək intellektual səviyyəsinin aydın təzahürüdür. Azərbaycanın dövlət müstəqilliyini bərpasından sonra da onlar sosial fəallıqları ilə seçilmiş, təhsil, səhiyyə, elm və mədəniyyət sahələrində çoxsaylı nailiyyətlər qazanmışlar. Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər.

Respublikamızda təşəbbüskar qadınlarımızın öz yaradıcı potensiallarını gerçəkləşdirmələri üçün əlverişli zəmin mövcuddur. Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətləri ilə onlar yeniləşən ölkəmizin ahəngdar yüksəlişinin təmin edilməsində əhəmiyyətli rol oynayırlar. Qadınlarımızın hazırkı ictimai mövqeyi və işgüzar nüfuzu vahid məfkurə ətrafında birləşmiş cəmiyyətimizin mühüm reallıqlarından biridir.

Əziz qadınlar!

Əminəm ki, siz hər zaman olduğu kimi bundan sonra da övladlarımızın milli mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək və Azərbaycanın inkişaf salnaməsinə parlaq səhifələr yazacaqsınız.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 mart 2020-ci il*

# Məhkəmə fəaliyyəti müasirləşdirilir

**Martın 6-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. İclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə bir sıra aktual məsələlər müzakirə edilib.**



Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov dahi öndər Heydər Əliyevin müəyyən etdiyi tərəqqi yolunun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini, hərtərəfli, o cümlədən sosial-iqtisadi sahədə aparılan islahatların müsbət nəticələrini qeyd edib. Fevralın 9-da azad və şəffaf şəraitdə keçirilmiş parlament seçkilərinin xalqımızın gələcək inkişaf kursu ətrafında həmrəyliyinin təzahürü olduğunu vurğulayıb.

Qeyd olunub ki, ötən il məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə dərin islahatlar ili kimi yadda qalıb. Ölkə başçısının "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı bu islahatların müasir çağırışlara uyğun yeni mərhələdə aparılmasına, hüquqların məhkəmə müdafiəsinin güclənməsinə rəvac verib.

Fərmanın icrası üzrə ədalət mühakiməsinin səmərəliliyinin artırılması, o cümlədən yeni məhkəmələrin təşkili, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və digər məsələlərlə bağlı 40-dək yeni qanun layihələri hazırlanıb. Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə bir sıra mühüm qanunlar qəbul olunub. Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə daha peşəkar və çevik baxılmasını təmin etmək məqsədilə regional kommersiya, habelə inzibati məhkəmələr yaradılıb, hakimlərin sosial müdafiəsi əhəmiyyətli dərəcədə gücləndirilib, məhkəmə fəaliyyətinin təminatı yaxşılaşdırılıb.

Yeni yaradılmış məhkəmələrin müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, aparatlarının formalaşdırılması üzrə zəruri tədbirlər görülüb. Şura tərəfindən onların ərazi yurisdiksiyası, hakim ştatlarının sayı müəyyən olunub. Cari ilin yanvar ayının 1-dən fəaliyyətə başlayan həmin məhkəmələr dövlət başçısının sərəncamları ilə yüksək nəzəri və praktiki hazırlığa malik hakimlərlə komplektləşdirilib.

Həmçinin, vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə işlək mexanizmlər müəyyən edilib, Ali Məhkəmə tərəfindən bu sahədə müvafiq monitorinqlər aparılması təsbit olunub. Bununla əlaqədar Şura tərəfindən monitorinqlərin keçirilmə üsullarını və hüquqi nəticələrini müəyyən edən Qaydalar qəbul olunub.

İclasda qeyd edilib ki, ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı 10.02.2017-ci il tarixli Sərəncamı ilə verilmiş tapşırıqların icrası çərçivəsində görülən tədbirlər real bəhrəsini verib. Cinayət qanunvericiliyinin dekriminallaşması nəticəsində 6.400-ə yaxın məhkum cəzadan tamamilə azad olunub və ya cəzası yüngülləşdirilib, istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı isə 20 faizədək azalıb. Azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinə üstün-

lük verilib, elektron nəzarət vasitələrinin tətbiqi əhəmiyyətli dərəcədə genişlənərək, 3000-dən çox məhkuma elektron qolbaqlar tətbiq edilib.

Dövlətimizin başçısının humanistliyinin növbəti təzahürü olaraq 03.04.2019-cu il tarixli Fərmanla cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılıb, bununla əlaqədar qanunvericiliyə bütövlükdə 400-ə yaxın dəyişikliklərin edilməsi ilə bağlı qanun layihələri hazırlanıb.

Eyni zamanda həmin Fərmanla ötən il hakimlərin ştat sayının mövcud korpusun üçdə biri qədər - 200 vahid artırılması məhkəmə sisteminin inkişafında mühüm hadisə olub. Yeni ayrılan ştatların komplektləşdirilməsi məqsədilə Şura tərəfindən hakimlərin seçim qaydası təkmilləşdirilib, bu prosesdə çeviklik artırılıb. İmtahanların müasir texnologiyalar tətbiq edilməklə, 200-250 nəfərlik qruplarla, fasiləsiz olaraq keçirilməsi, namizədlərin suallları kompüter vasitəsilə cavablandırması və nəticələrin dərhal elanı təsbit olunub.

Ötən il hakimliyə namizədlərlə qeyd olunan üsullarla yazılı və şifahi imtahanlar keçirilib. İmtahanlarda uğur qazanmış 44 nəfər tədris kursuna buraxılıb. Namizədlərin hakimlik fəaliyyətinə hazırlanmaları üçün Ədliyyə Akademiyasında keçirilən həmin kursda nüfuzlu ekspertlərin iştirakı ilə mühüm və aktual mövzular tədris olunur, namizədlərin məhkəmələrdə, həmçinin, beynəlxalq təcrübəni öyrənmələri məqsədilə xarici dövlətlərdə staj keçmələri təşkil olunur. Eyni zamanda növbəti müsabiqə üzrə yazılı imtahanlarda müvəffəqiyyət qazanan 64 nəfər hakimliyə namizədlə şifahi imtahanlara başlanılıb, sənədlərini təqdim etmiş daha 200 namizədlə isə test imtahanının keçirilməsi üzrə təşkilati tədbirlər görülür.

Ümumiyyətlə, son dövr ərzində obyektiv səbəblərlə yanaşı, görülmüş tədbirlər, o cümlədən yeni hakimlərin təyinatı, bir sıra işlərin məhkəmədən kənar asan həllinin müəyyən olunması, kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat prosedurunun, iqtisadi işlər üzrə icraatın yalnız elektron aparılması qaydasının təsbit edilməsi nəticəsində hakimlərin mülki işlər üzrə iş yükü 2 dəfədən çox azalıb.

Yeni ayrılmış hakim ştatlarının komplektləşdirilməsi və cari ildən mübahisələrin məhkəmədən kənar həllində mühüm vasitə olan mediasiya institutunun tətbiqinə başlanılması məhkəmələrdə iş yükünün bir az da azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına xidmət edəcəkdir.

Fərmanla qarşıya qoyulmuş məsələlərin həlli, o cümlədən məhkəmə fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması, aşkarlığın və qərəzsizliyin təmin edilməsi məqsədilə ötən il Şurada "Korrupsiyaya qarşı mübarizə və məhkəmə monitorinqi", "İnformasiya texnologiyaları və innovasiyalar" sektorları təsis edilib. "Qaynar Xətt" yaradılaraq, 2500-dək müraciətə baxılıb, 50-dən çox məhkəmədə monitorinq aparılıb. Aşkar edilən pozuntular hakimlərin və məhkəmə sədrlərinin diqqətinə çatdırılıb, daha kobud pozuntularla bağlı isə intizam icraatları başlanılıb. Yol verilən nöqsanların yerində aradan qaldırılması məqsədilə hər həftə məhkəmələrdə qəbulların keçirilməsi təcrübəsi yaradılıb.

Ümumiyyətlə, ötən il fəaliyyətlərində nöqsan və qanun pozuntularına yol verdiklərinə, o cümlədən korrupsiya hüquqpozmalarına şərait yaratdıqlarına görə 48 hakim intizam məsuliyyətinə cəlb edilib, 2 nəfərin səlahiyyətlərinə xitam verilib, 7 nəfər tutduğu vəzifədən azad olunub. 18 hakimin səlahiyyət müddəti uzadılmayıb. Məhkəmə səhvlərinin aradan qaldırılmasında hakimlərin tədrisinin əhəmiyyəti nəzərə alınaraq Ədliyyə Akademiyası ilə birgə 50-dən çox tədris tədbiri keçirilib.

İclasda ədalət mühakiməsinin təkmilləşdirilməsi, hakimlərlə tədris prosesinin düzgün qurulması, onların vəzifədə irəli çəkilməsi, hakimlik və sədrlik fəaliyyətini davam etdirməyə yararlılıqlarının müəyyən edilməsində mühüm mexanizm olan "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"-nın layihəsi müzakirə olunmaqla qəbul edilib, onun elektron-proqram təminatı nümayiş etdirilib. Qaydaların tətbiqi ilə bağlı Şura Aparatında ayrıca qurum yaradılıb.

Ötən il həmçinin, dövlət başçısının tapşırıqlarına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, funksionallığının artırılması üzrə əməli tədbirlər görülüb, proses-

də mobil qaydada iştirak etməyə imkan verən "Mobil məhkəmə" proqram təminatı istifadəyə verilib. Şəffaflığın artırılması, məhkəmə fəaliyyəti barədə ictimaiyyətin geniş məlumatlandırılması məqsədilə media ilə işləyəcək hakimlər müəyyən edilərək, KİV təmsilçilərinə təqdim edilib.

Ölkəmizdə aparılan məhkəmə islahatı beynəlxalq aləmdə də təqdir olunur. Yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmə fəaliyyətinin rəqəmsallaşdırılması, elektron məhkəmə sisteminin təkmilləşdirilməsi, mediasiya institutunun tətbiqi Dünya Bankının "Doing Business 2020" hesabatında müsbət dəyərləndirilib. Eyni zamanda mütərəqqi təcrübəmizin yayılması Avropa Şurasında təşviq edilib.

İclasda həmçinin ölkə başçısının vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiyanın yolverilməzliyi, bütün sahələrdə dürüstlüyün və şəffaflığın təmin edilməsi ilə bağlı tapşırıqları qeyd olunub, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının qətiyyətlə alınması üzrə qarşıda duran vəzifələr vurğulanıb. Yuxarı instansiya məhkəmələrinin diqqəti yol verilən pozuntulara cəlb edilməklə belə hallara qarşı prinsipiallığın artırılması diqqətə çatdırılıb.

Həmçinin, Şurada qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına, süründürməçilik və digər pozuntulara yol verdiklərinə görə Lerik Rayon Məhkəməsinin hakimi Atabəy Kiçibəyova töhmət verilib, Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmira Nağıyevaya və Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ayaz Məmmədova irad tutulub, bir neçə hakim barədə intizam icraatları başlanılıb.

# Mart soyqırımı qurbanlarının xatirəsi heç zaman unudulmur

**Erməni daşnaklarının bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımından 102 il ötür.**




1918-ci ilin mart-aprel aylarında törədilmiş soyqırımı zamanı Bakı və digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. Erməni millətçilərinin qeyri-insani əməlləri Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə də davam edərək kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirilib.

Bu ağır hadisələrin araşdırılmasında, tarixi həqiqətlərin aşkara çıxarılmasında Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərmiş Fövqəladə İstintaq Komissiyasının rolu böyük olub. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb, yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu qətliamın və azərbaycanlılara qarşı ermənilərin tarix boyu apardıqları etnik təmizləmə siyasətinin mahiyyətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır.

Soyqırımın ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyində elektron məlumat lövhələrində ermənilərin xalqımıza qarşı zaman-zaman törətdikləri vəhşiliklərdən bəhs edən foto və video-slaydlar nümayiş etdirilib, ədliyyə işçiləri tərəfindən mətbuatda çıxışlar edilib, faciənin tarixinə nəzər salınaraq bu qanlı aksiyanın statistikası, miqyası və qəddarlığına görə bəşəriyyətə qarşı həyata keçirilmiş ən ağır cinayətlərdən olduğu bildirilib.

Bu kütləvi qırğından uzun illər keçsə də, xalqımız, o cümlədən ədliyyə işçiləri insanlığa sığmayan bu dəhşətli faciənin acı nəticələrini heç zaman unutmur, soyqırımı qurbanlarının xatirəsini daim ehtiramla yad edirlər.

# Ədliyyə işçiləri və hakimlər Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" 19.03.2020-ci il tarixli Fərmanı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna müxtəlif təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən könüllü ianələr edilir.**

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi bu istiqamətdə həyata keçirilən tədbirlərə dəstək göstərilməsi təşəbbüsünə qoşularaq Koronavirusla Mübarizəyə Dəstək Fonduna əmək haqlarından 870 min manat məbləğində vəsaitin köçürülməsi qərara alınıb.

Ədliyyə işçiləri koronavirusla mübarizədə dövlətimiz və xalqımızla həmrəy olduğunu bəyan edirlər.

**Hüquq ictimaiyyəti koronavirusla mübarizə tədbirlərinə fəal dəstək göstərərək, Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ianələr edir.**

Məhkəmə-Hüquq Şurası, hakim assosiasiyaları, apelyasiya və birinci instansiya məhkəmələrinin hakimləri də bu nəcib təşəbbüsə qoşulub, Koronavirusla Mübarizəyə Dəstək Fonduna əmək haqlarından 550 min manat məbləğində vəsaitin köçürülməsini qərara alıblar.

Hakimlər hər kəsin yüksək sosial məsuliyyət göstərməsinin, epidemiyanın qarşısının alınması üzrə həyata keçirilən tədbirlərə dəstək verməsinin vacibliyini bəyan ediblər.

# Qlobal pandemiya olan koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması üzrə qəti tədbirlər görülür

## ◆ Vətəndaşların qəbulu və müraciətlərinə baxılmasına dair

**Əhalinin təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məqsədilə ölkəmizdə COVİD-19 virusu pandemiyasının yayılmasının qarşısının alınması ilə bağlı kompleks tədbirlər həyata keçirilir.**




Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən zəruri sosial izolyasiya tədbirləri müəyyən edilib, vətəndaşlara kütləvi yerlərdən və qapalı məkanlardan uzaq durmaq tövsiyə olunub, dövlət qurumlarına vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul olunması, mümkün olduğu halda, səyyar xidmətlərin göstərilməsi tapşırılıb.

Bununla əlaqədar Nazirlər Kabinetinin təlimatına əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində vətəndaşların qəbulu təxirə salınıb.

Müraciətlər nazirliyə aşağıdakı vasitələrlə edilə bilər:

- elektron poçt ünvanına (contact@justice.gov.az) göndərilməklə;
- rəsmi internet saytda "Vətəndaşlar üçün əlaqə" bölməsi (http://justice.gov.az/home/con-

tact) vasitəsilə elektron qaydada;

- "İnteraktiv əlaqə" bölməsi (http://justice.gov.az/ categories/1035) vasitəsilə müraciətlərin onlayn rejimdə cavablandırılması yolu ilə;

- (012) 538-08-57 nömrəli telefona faks göndərilməklə;

- Nazirliyin əsas (ünvan: Bakı şəhəri, İnşaatçılar pr. 1), həmçinin icra və probasiya xidmətlərinin və istintaq idarəsinin yerləşdiyi (ünvan: Bakı şəhəri, Süleyman Dadaşov küç., 84/3) inzibati binalarının qarşısında ərizə və şikayətlər üçün xüsusi quraşdırılmış qutularına daxil edilməklə.

Bütün bu müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Qanunda nəzərdə tutulmuş qaydada baxılacaqdır.

Həmçinin bildirilir ki, nazirlikdə "Qaynar xətt" (012-539-76-75) xidməti interaktiv fəaliyyət göstərir.

Eyni zamanda vətəndaşlar (012)-510-10-01 daxili: 21-01//21-04/21-25 telefon nömrələri vasitəsilə nazirliyin qəbuluna məsul şəxslərlə əlaqə saxlayaraq müraciət edə bilərlər.

## Qeydiyyat və notariat orqanlarının fəaliyyəti ilə bağlı

**Ölkəmizdə COVİD-19 infeksiyasının yayılmasının qarşısının alınması üzrə görülən qəti tədbirlər çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən əhaliyə qeydiyyat və notariat sahəsində göstərilən xidmətlər üçün yalnız təxirəsalınmaz hallarda müraciət edilməsi tövsiyə olunur.**



Nazirliyin qurumlarına bilavasitə müraciət edən şəxslərə müvafiq xidmətlər, o cümlədən nikahın qeydiyyatı sosial izolyasiya tədbirləri nəzərə alınmaqla göstəriləcəkdir. Bu dövr ərzində təntənəli nikah mərasimləri həyata keçirilmir.

Bildirilir ki, vətəndaşlar nazirliyin rəsmi internet saytının "Vətəndaşlar üçün əlaqə" və "İnteraktiv əlaqə" bölmələri vasitəsilə ədliyyə xidmətləri ilə bağlı müraciət edə bilərlər:

- "Vətəndaşlar üçün əlaqə" bölməsində (http://justice.gov.az/home/contact) nazirliyin, o cümlədən qeydiyyat və notariat orqanlarının əlaqə vasitələri və elektron müraciət forması mövcuddur;

- "İnteraktiv əlaqə" bölməsi (http://justice.gov.az/categories/1035) vasitəsilə isə yaranan sualların onlayn rejimdə cavablandırılması mümkündür.

Eyni zamanda, ədliyyə xidmətlərindən elektron qaydada yararlanmaq üçün nazirliyin elektron xidmətlər bölməsi (www.exidmet.justice.gov.az) fəaliyyət göstərir. Vətəndaşlar e-xidmətlər barədə, o cümlədən vətəndaşın, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxsin fərdi identifikasiya nömrəsi ilə bağlı əlavə məlumatı (012) 525-40-40 telefon nömrəsi vasitəsilə əldə edə bilərlər.

Rəsmi sənədlərin tərcüməsinin notariat qaydasında təsdiqi, habelə xaricdə istifadə edilməsi üçün onlara apostil verilməsi və yaxud leqallaşdırılması üçün hazırlanması və ünvana çatdırılması xidmətlərindən yararlanmaq üçün 24 saat ərzində 050 365 06 58 və ya 051 225 18 08 nömrələrinə telefon və ya whatsapp, yaxud merkezi.tercume@mail.ru elektron poçt vasitəsi ilə müraciət oluna bilər.

Həmçinin, Ədliyyə Nazirliyinin (012) 404-42-64, (012) 404-42-65, (012) 562-91-99, (012) 561-77-04 telefon nömrələri vasitəsilə notariuslarla əlaqə saxlanılmaqla səyyar notariat xidmətlərinin göstərilməsi üçün müraciət oluna bilər.

Xatırladırıq ki, nəqliyyat vasitələrinin idarə olunmasına dair, həmçinin bu ərəfədə istifadə verilmiş vəkillərə verilən etibarnamələrin elektron rəsmiləşdirilməsi xidməti həftənin bütün günləri 24 saat ərzində "Mobil notariat" proqram tətbiqi vasitəsilə həyata keçirilir. Bu xidmətdən faydalanmaq üçün App Store və ya Google Play elektron platformasından həmin proqramı telefona yükləmək kifayətdir. Ətraflı məlumat mobil tətbiqin sosial şəbəkə səhifəsində (facebook.com/mobilnotariat) yerləşdirilib.

## Məhkumların hüquqlarının qorunması diqqət mərkəzindədir

**Ölkəmizdə qlobal pandemiyanın qarşısının alınması məqsədilə Ümumdünya Səhiyyə Təşkilatının və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən zəruri qabaqlayıcı tədbirlər, o cümlədən dezinfeksiya işləri davam etdirilir.**

Penitensiar və tibb xidmətləri gücləndirilmiş iş rejiminə keçərək, məhkum və təqsirləndirilən şəxslərin yaxınları ilə görüşləri və sovqatların ötürülməsi məhdudlaşdırılıb, bütün əməkdaşların və məhbusların sağlamlığı daim nəzarətdə saxlanılmaqla gündəlik tibbi müayinəsi, termometriyası aparılır. Hazırda onların səhhəti normaldır və heç bir ciddi xəstəlik müəyyən edilməyib.

Bu sahədə vəziyyət nazirliyin aidiyyəti məsul işçilərindən və vətəndaş cəmiyyətinin nümayəndələrindən ibarət monitorinq qrupu tərəfindən mütəmadi öyrənilir, habelə məhkum və həbs olunmuş şəxslərin qidalanmasına, ərzaqla təminatına, onların çeşidinə və keyfiyyətinə gündəlik nəzarət olunur.

Eyni zamanda, dövlətimizin humanizm siyasətinin təzahürü olaraq məhkumları cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqi diqqətdə saxlanılaraq bu məqsədlə yaradılmış nazirliyin xüsusi Komissiyası bayram günlərində də fəaliyyətini davam etdirib, video-konfrans vasitəsilə virtual qaydada keçirilən iclaslarda məhkumların işləri öyrənilib, özləri ilə söhbətlər aparılıb və qanunvericiliyin tələblərinə cavab verən şəxslər barədə materiallar dərhal məhkəməyə təqdim olunub.

Məhkumların hüquqlarının qorunması məqsədilə növbətçi hakimlər tərəfindən həmin işlərə təxirəsalınmadan baxılaraq 200 məhkum azadlığa buraxılıb.

Bayram günlərində öz ailələrinə qovuşan məhkumlar və onların yaxınları tərəfindən bu humanist institutun tətbiqi böyük sevinclə və dövlətə minnətdarlıq hissi ilə qarşılanıb. Ədliyyə Nazirliyi tərəfindən bu istiqamətdə tədbirlər davam etdirilir.

## Penitensiar müəssisələrdə koronavirus infeksiyasına qarşı mübarizə tədbirləri

**Koronavirus (COVİD-19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının vaxtında alınması məqsədilə Ədliyyə Nazirliyi Penitensiar xidmətin müəssisələrində və digər struktur qurumlarında kompleks profilaktiki tədbirlər həyata keçirilir.**



Bununla əlaqədar müvafiq tədbirlər planına uyğun olaraq penitensiar müəssisələrin nəzarət-buraxılış məntəqələrində "sanitariya mühafizə postları" qurularaq fərdi müdafiə vasitələri, məsafədən hərarəti ölçən cihazlar, dezinfeksiya avadanlıqları və vasitələri ilə təchiz edilib. Bu müəssisələrə daxil olan bütün şəxslər və nəqliyyat vasitələri sanitar-təmizləmə prosedurlardan keçirilir, sanitariya-epidemioloji nəzarət gücləndirilməklə geniş maarifləndirmə işi aparılır. Koronavirus infeksiyasının yayılma təhlükəsinin qarşısının alınması məqsədilə vətəndaşların penitensiar müəssisələrə daxil olması, məhkum və həbs edilmiş şəxslərə görüşlərin verilməsi, habelə gətirilən sovqatların qəbul edilməsi müvəqqəti olaraq dayandırılıb. Əməkdaşların və digər aidiyyəti şəxslərin (vəkil, müstəntiq, hakim və s.) müəssisələrə buraxılışı isə xüsusi qaydada həyata keçirilir.

Həyata keçirilən tədbirlərin icrası nazirliyin rəhbərliyinin gündəlik nəzarətindədir. Bu məqsədlə vəziyyəti mütəmadi öyrənmək üçün nazirliyin aidiyyəti məsul işçilərindən və Ədliyyə naziri yanında İctimai Komitənin nümayəndələrindən

ibarət monitorinq qrupu yaradılıb.

Monitorinq qrupu penitensiar müəssisələrə baş çəkərək həyata keçirilən profilaktik və təhlükəsizlik tədbirləri, məhkumların saxlanma, tibbi və dərman təminatı ilə maraqlanıb.

Həmçinin ərzaq təminatı və qida şəraiti ilə tanış olunub. Müəyyən edilib ki, məhbusların ərzaq təminatı və gündəlik qida rasionu qanunvericiliklə müəyyən edilmiş normalara uyğun təşkil olunur, bununla bağlı cəza çəkənlər, o cümlədən onların yaxın qohumları tərəfindən şikayətlər daxil olmayıb.

Eyni zamanda məhkumlar və həbs olunmuş şəxslər müəssisələrdə fəaliyyət göstərən, çox çeşidli tələbat malları ilə təmin olunmuş ticarət köşklərinin xidmətindən də istifadə edirlər.

Penitensiar müəssisələrin fəaliyyətinə nəzarətin gücləndirilməsi məqsədilə monitorinqlər davamlı olaraq həyata keçirilir.

Qeyd olunmalıdır ki, şəxsi heyət, penitensiar müəssisələrdə saxlanılan məhkum və həbs edilmiş şəxslər arasında koronavirus infeksiyasına yoluxma halları qeydə alınmayıb.

## Məhkəmələrin fəaliyyəti barədə

**2020-ci il 19 mart tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun iclası keçirilib.**



İclasda "Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədi ilə məhkəmələrdə həyata keçirilməsi zəruri olan tədbirlər haqqında" Qərar qəbul edilib.

Qərarda Azərbaycan Respublikasının bütün məhkəmələrinə təxirəsalınmaz qaydada baxılmalı olan, yaxud məhkəmə baxışının keçirilməsini tələb etməyən işlərə (qətimkan tədbirlərinin seçilməsi, uzadılması, dəyişdirilməsi, ləğvi, inzibati həbs nəzərdə tutulan işlər, iddianın təmin tədbirlərinin görülməsi, əmr icraatı, kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat, bəzi kateqoriya üzrə xüsusi icraat işləri və sair) baxılması istisna olunmaqla, icraatlarında olan digər işlərə baxılmasının müvəqqəti olaraq təxirə salınması tövsiyə edilib.

Məhkəmələrə həmçinin İnzibati-Prosessual Məcəllənin 16-cı maddəsinin tələbləri nəzərə alınmaqla inzibati məhkəmə icraatı qaydasında baxılan işlərə şifahi məhkəmə baxışı (şifahi dinləmələr) keçirilmədən baxılması imkanlarından, eləcə də Mülki Prosessual Məcəllənin tələbləri nəzərə alınmaqla mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması imkanlarından istifadə edilməsi tövsiyə olunub.

Qərar 20 mart 2020-ci il tarixindən 20 aprel 2020-ci il tarixinədək qüvvədə olacaqdır.

Plenumda həmçinin konkret işlərə baxılıb.

## Hakim olmaq arzusunda olan şəxslərin nəzərinə!

**Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkili məqsədilə xüsusi rejimdə iş normalarına dair təlimat verilib.**

Bununla əlaqədar Hakimlərin Seçki Komitəsi bildirir ki, hakim olmaq arzusunda olan şəxslərin sənədləri elektron qaydada qəbul edilir.

Bu məqsədlə sənədlərin elektron qaydada qəbulu üçün prosedurlar tam sadələşdirilmişdir.

Belə ki, hakimliyə namizədliyinin qeydə alınmasını istəyən şəxslər müvafiq ərizə və aşağıdakı sənədlərinin foto-surətini Komitənin hsk@jlc.gov.az ünvanına elektron formatda, o cümlədən mobil telefon vasitəsilə göndərə bilərlər:

1. Şəxsiyyət vəsiqəsinin surəti;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (A-3 formatında);
3. Tərcümeyi-hal (A-3 formatında);
4. Ali təhsil haqqında sənədin (diplomun) surəti;
5. Əmək kitabçasının təsdiq olunmuş surəti;
6. Əqli və fiziki cəhətdən sahlamlıq barədə tibbi arayış;
7. 4x6 ölçüdə 4 ədəd rəngli fotoşəkil.

Sənədlərin qəbulu barədə elektron poçt ünvanı vasitəsilə Sizə məlumat veriləcəkdir.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62 (faks)

**Hakimlərin Seçki Komitəsi**

# Ədliyyə nazirinin müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət orqanlarının qarşısında qoyduğu əsas vəzifələrdən biri vətəndaşların yerlərdə qəbulunu və müraciətlərinə həssaslıqla yanaşılmasını daim diqqətdə saxlamaqdır. Bununla əlaqədar dövlət başçısının tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri tərəfindən şəhər və rayonlarda vətəndaşların mütəmadi qəbulları həyata keçirilir.**

Martın 6-da Ədliyyə nazirinin müavini Vilayət Zahirov Yevlax rayonunda Yevlax, Ağdaş və Goranboy, martın 13-də isə nazir müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov Quba rayonunda Quba, Qusar və Xaçmaz rayonlarında yaşayan vətəndaşları qəbul ediblər.

Qəbullardan öncə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Nazir müavinlərinin keçirilmiş növbəti qəbullarında vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılaraq hər bir vətəndaş diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbullarda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib, həmçinin həlli başqa qurumlara məxsus olan müraciətlər aidiyyəti üzrə göndərilib.

Səfər zamanı nazirliyin yerli qurumlarının fəaliyyəti və iş şəraiti, orada vətəndaşların qəbulu işinin təşkili vəziyyəti ilə tanış olunub.





Yevlax rayonunda ədliyyə işçilərinin iştirakı ilə görüş keçirilərək dövlət başçısının fevralın 3-də regionların sosial-iqtisadi inkişafının yekunlarına dair keçirdiyi konfransda dövlət məmurları qarşısında qoyduğu tələbləri, xüsusi ilə insanlara layiqli xidmət göstərilməsi, qanunun tələblərinə ciddi əməl olunması, şəffaflığın artırılması ilə bağlı verdiyi tapşırıqları, sui-istifadə hallarının və korrupsiyanın yolverilməzliyi diqqətə çatdırılıb, etik davranış qaydalarına dönmədən əməl olunması vurğulanıb, 2020-ci il "Könüllülər ili" çərçivəsində əhaliyə göstərilən ədliyyə xidmətləri sahəsində gənc könüllülərin cəlb olunmasının vacibliyi qeyd edilib.

## Virtual qəbul

**Azərbaycan Respublikası Prezidentinin vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılaraq, vətəndaşların nazirlikdə, bölgələrdə və müasir İKT-lər tətbiq olunmaqla virtual qəbul məntəqələri vasitəsilə qəbuluna xüsusi önəm verilir.**

Nazirliyin Penitensiar xidmətinin rəhbərliyi tərəfindən



Gəncə, Şirvan, Şəki, Xaçmaz və İmişli regional ədliyyə idarələri ilə video-konfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün video-qəbul keçirilib.

Video-qəbulda vətəndaşların penitensiar xidmətin fəaliyyəti, məhkumları vaxtından əvvəl şərti azad etmə institutunun tətbiqi və digər məsələlərlə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin bir qismi elə yerindəcə həll olunub, qanunvericiliyin tələbləri ətraflı izah olunub, digər müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

# "Mobil notariat"ın yeni "Vəkilə verilən etibarnamələr" funksiyası istifadəyə verilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, o cümlədən elektron ədliyyə xidmətlərinin sayının artırılması, bu xidmətlərdə yeni innovativ metodların tətbiqi və onların mobil versiyalarının hazırlanması üzrə ardıcıl tədbirlər həyata keçirilir. Nazirlik tərəfindən notariat xidmətlərinin çevik, asan və məsafədən göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası və "Mobil notariat" proqram təminatı istifadəyə verilib.**

Artıq dörd aydır ki, vətəndaşlar notariat ofisinə müraciət etmədən nəqliyyat vasitələrinin idarə edilməsinə dair etibarnamələrin elektron rəsmiləşdirilməsi xidmətindən səmərəli bəhrələnirlər. Proqram istifadəçilərinin sayı 30 mini ötüb və bu növ çoxsaylı etibar-




namələr elektron qaydada rəsmiləşdirilib.

Bundan başqa tətbiq vasitəsilə şəxsin nəqliyyatdan istifadə edilməsinə dair etibarnamələrin verilməsi, eləcə də şəxsin iştirakçısı olduğu bütün notariat əməliyyatları ilə bağlı sənədlərin mobil cihazda saxlanılması, sənədin qüvvədən düşməsi barədə məlumatın dərhal alınması və elektron versiyasından istifadə edilməsi mümkündür.

Əhaliyə təqdim olunan bu innovasiyaların funksionallığının artırılması üzrə işlər davam etdirilərək "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində "Mobil notariat" telefon tətbiqinə daha bir yeni - "Vəkilə verilən etibarnamələr" funksiyası əlavə olunub.

Novruz bayramı ərəfəsində martın 19-dan istifadəyə verilən vəkil etibarnamələrinin mobil cihazlar vasitəsilə elektron qaydada verilməsi imkanından vətəndaşlar AppStore və PlayStore elektron platformasından pulsuz olan "Mobil notariat" tətbiqini yükləyərək qeydiyyatdan keçdikdən sonra, habelə hazırkı istifadəçilər proqramı yeniləməklə yararlana bilərlər.

Qeydiyyat prosedurunun sadələşdirilməsi məqsədilə yaxın vaxtda "ASAN login" qeydiyyat üsulundan da istifadə edilməsi nəzərdə tutulur.

Etibarnamələrin mobil qaydada verilməsi həftənin 7 günü 24 saat ərzində mümkündür və proses cəmi 5-10 dəqiqə ərzində icra edilir.

Hazırda Ədliyyə Nazirliyi və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə belə etibarnamələrin verilməsinin yaxın vaxtlarda MYGOV portalı vasitəsilə də təşkil edilməsi nəzərdə tutulur.

# Ədliyyə Akademiyasında

## Hakimliyə namizədlərin tədrisi davam edir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə seçimi davam edir.**

Hazırda imtahanlarda uğur qazanmış 44 nəfər namizəd hakim vəzifəsinə hazırlanmaları üçün Ədliyyə Akademiyasında tədris kursu keçirlər. Kurslarda nüfuzlu yerli və beynəlxalq ekspertlərin iştirakı ilə mühüm və aktual mövzular tədris edilir, həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsinə xüsusi diqqət yetirilir.

Bu məqsədlə Avropa Məhkəməsinin Azərbaycan üzrə hakimi Lətif Hüseynov namizədlər qarşısında "Avropa İnsan Hüquqları Konvensiyasının tətbiqi məsələləri" mövzusunda mühazirə ilə çıxış edib, onlara Konvensiyanın tətbiqi ilə bağlı tövsiyələr verib.

Mühazirə zamanı Avropa Məhkəməsinin bir sıra qərarları ilə bağlı müzakirələr aparılıb, maraq doğuran suallar ətraflı cavablandırılıb.

Tədris kursu çərçivəsində həmçinin, namizədlər üçün "Əqli mülkiyyət hüquqlarının qorunması və hüquqi təminatı" mövzusunda seminar keçirilib.

Ədliyyə Akademiyası və

Əqli Mülkiyyət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən seminarın açılışında Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov və Agentliyin idarə heyətinin sədri Kamran İmanov çıxış edərək dövlət başçısının rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən ixtisaslaşdırılmış məhkəmələrin yaradılması, məhkəməyə müraciət





imkanlarının genişləndirilməsi, habelə əqli mülkiyyət sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verib, tədbirin əhəmiyyətini qeyd ediblər.

Seminarda iştirak edən Agentliyin aidiyyəti məsul şəxsləri tərəfindən mövzu ilə bağlı təqdimatlarla çıxışlar edilib, maraqlı diskussiyalar aparılıb.

## Distant təlimlər





**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, tədris işinin ən müasir metodikalar və İKT-lər tətbiq olunmaqla təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirilir.**

Tədris prosesinin elektronlaşdırılması və təlim materiallarının dinləyicilərə əlçatanlığının təmin edilməsi məqsədilə Akademiyanın 2017-ci ildən tətbiq olunan Elektron Tədris Platformasının (Moodle Proqramı) imkanları genişləndirilir.

Akademiyada icbari təlim keçən namizədlərə və ixtisasartırma kurslarına cəlb olunan dinləyicilərə Akademiyanın rəsmi saytı (aaj.gov.az) vasitəsilə Platformaya daxil olaraq təlim materialları - proqram və cədvəl, video-dərslərlə tanış olmaq, öz davamiyyətlərini elektron formada izləmək imkanı yaradılıb. İstifadəçilər platformadan qeydiyyatdan keçməklə video-konfrans vasitəsilə distant formada təlim keçə bilirlər.

Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqənin test və söhbət mərhələsindən uğurla keçərək Akademiyada icbari təlimə buraxılmış namizədlərlə təhsilin distant formasından istifadə edilərək Elektron Tədris Platforması vasitəsilə video-dərslər keçirilir.

Təlimlərdə kursun proqramına uyğun olaraq müxtəlif mövzularda mühazirələr dinləyicilərin diqqətinə çatdırılır, maraq doğuran suallar ətraflı cavablandırılır.

# Naxçıvan Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi müasir avadanlıqlarla təchiz olunub

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Sərəncamı ilə Muxtar Respublikanın Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə Avropa Məhkəmə Ekspertizaları Birliyinin yüksək standartlarına cavab verən 16 adda kimyəvi maddələr və tozlar olmaqla, ümumilikdə 62 adda müxtəlif təyinatlar üzrə müasir avadanlıqlar alınıb.**



Yeni alınmış avadanlıqlara baxış zamanı avadanlıqların ən müasir texniki göstəricilərə malik olduğu bildirilib. Qeyd olunub ki, bununla da mərkəzdə aparılan tədqiqatların hərtərəfliliyini və tamlığını təmin etmək, müxtəlif təyinatlı kimyəvi tozlarla əşyalar üzərində daktiloskopik ekspertizaların keçirmək, ekspertiza sahəsində rast gəlinən problemləri aradan qaldırmaq mümkün olacaq.

Sonda avadanlıqların qorunub saxlanılması, yeni avadanlıqların istifadə qaydalarının dərindən öyrənilməsi və ekspertlər tərəfindən rəylərin daha düzgün tərtib olunması barədə tapşırıqlar verilib.

# 2020-ci il Azərbaycanda "Könüllülər ìlì"dìr

# Könüllülük insanseverlik, vətənseverlik, əməkseverlik göstəricisidir

**Laləzar Əlizadə,**
**Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin məsləhətçisi**
**III dərəcəli ədliyyə qulluqçusu**

**Dünya tarixində müasir anlamda "könüllü fəaliyyət" anlayışı ilk dəfə XVII əsrdə Fransa ordusunda yaranmışdır. Bu anlayış könüllü hərbiçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxmışdır. 1881-ci ildə ABŞ-da vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Qurumunun yaranmasına səbəb olmuşdur.**

Rusiyada XIX əsrdə könüllülük prinsipləri ilə çalışan müəllim və həkimləri də örnək göstərmək olar. 1859-cu ildə İtaliya, Fransa və Avstriya arasında olan Solferino döyüşündən təsirlənən İsveçrə yazıçısı Anri Dünan yerli kilsələrin birində öz vəsaiti hesabına hospital yaratmışdır. Burada yaralılara könüllülər ilkin tibbi yardım göstərmişdilər. Xeyriyyə qurumları içərisində 1863-ci ildə İsveçrədə yaranmış Beynəlxalq Qırmızı Xaç Komitəsini misal göstərmək olar.

Beynəlxalq humanitar qurumlar öz mandatları çərçivəsində bir çox könüllülük proqramları elan etmişdilər. Bunlardan ən tanınmışı Birləşmiş Millətlər Könüllüləri proqramıdır (United Nations Volunteers -UNV). Bu proqram BMT-nin sülh və inkişafa nail olmaq uğrunda bütün dünyanı əhatə edən könüllülük fəaliyyətidir. Ali və ya orta ixtisas təhsilli olmaq, minumum 25 yaş həddinə çatmaq, minumum iki il müvafiq sahədə təcrübə, ingilis, fransız, ispan dillərindən ən azı birində sərbəst danışmaq, könüllülük fəaliyyətinin prinsip və dəyərlərinə sadiq olmaq, çətin yaşam səbəblərinə tab gətirmək, güclü təşkilatçılıq və insanlarla işləmək vərdişlərinə nail olmaq, multikultural şəraitdə işləmək təcübəsi BMT könüllüsü olmaq üçün əsas tələblər hesab olunur.

1985-ci ildə BMT Baş Assambleyası dekabr ayının 5-ni Beynəlxalq İqtisadi və Sosial İnkişaf Naminə Könüllülər günü (International Volunteer Day for Economic and Social Development Day) və ya qısaca olaraq Beynəlxalq Könüllülər Günü kimi qeyd etmək təklifi ilə çıxış etmişdir. Könüllülər öz istedad, zaman və enerjilərini cəmiyyətə heç bir təmənna gözləmədən bəxş edirlər. XX əsrin ikinci yarısından başlayaraq könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək, BMT könüllüləri tərəfindən koordinasiya olunmağa başlayıb və beləliklə, könüllülük dünyada kütləvi bir sosial fəaliyyətə çevrilib.

Azərbaycanda da könüllülük ənənəsi çox zəngindir. XIX əsrin sonu XX əsrin əvvəlləri bir sıra xeyriyyə cəmiyyətləri çox uğurlu fəaliyyət göstərmiş, insanları başqalarının xeyrinə cürbəcür işlərə cəlb etmişlər. Humanitar sahədə fəaliyyət göstərən Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1920-ci ildə yaranmışdır. Həmin ilin mart ayının 10-da Azərbaycan Xalq Cumhuriyyətinin Müdafiə naziri general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü və Fətəli Xan Xoyskinin rəhbərlik etdiyi hökumətin qərarı ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti üçün hökumət tərəfindən 483.490

rubl məbləğində maliyyə vəsaiti ayrılmışdır.

İkinci dünya müharibəsi illərində yaralı əsgərlərə yardım göstərilməsində, bütövlükdə şəfqət sahəsindəki xeyirxah işləri nəzərə alınaraq bir çox şəfqət bacıları Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək mükafatı olan, bu sahədə fədakar xidmətlər göstərmiş ingilis tibb bacısı Florens Naytinqeylin adını daşıyan medalla təltif edilmişdilər.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1995-ci ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının üzvü olmuşdur. Silahlı münaqişə qurbanlarına, fövqəladə hallar nəticəsində zərər çəkmiş insanlara humanitar yardım və sosial xidmətlərin göstərilməsi sahəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin səmərəli fəaliyyətini nəzərə alaraq, cənab prezident İlham Əliyev 7 aprel 2008-ci ildə hər il mart ayının 10-nun "Qızıl Aypara Günü" kimi qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. Hazırda bu qurumun 20000-ə yaxın könüllüsü vardır.

Qanlı 20 Yanvar hadisələri zamanı insanların xəstəxanalara könüllü gedərək qan verməsi də xalqımızın humanist ənənəsindən qaynaqlanır. Bu hadisələrdə həkimlərin və tibb bacılarının təmənnasız yardımı ilə onlarla yaralının həyatını qurtarmaq mümkün olmuşdu.

Müasir Azərbaycanda könüllülük sahəsində real inkişaf ulu öndər Heydər Əliyevin hakimiyyəti illərindən başlamışdır. Dahi öndərin idarəçiliyinin ilk illərindən başlayaraq hərtərəfli və davamlı inkişaf məqsədi ilə dövlət və özəl sektorlar, vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanılmışdır. Bu prosesə insanları könüllü cəlb etməyə, onların sahə təcrübəsindən yararlanmağa mühüm önəm verilirdi. Belə ki, 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlamış, 1998-2000-ci illərdə bu proqramın nəticəsi olaraq güclü könüllü komandası yaradılmış və könüllülük prinsipinin geniş auditoriyaya təbliğatına start verilmişdi.

XXI əsrin əvvəlindən ölkəmizin neft gəlirləri ilə müşayiət olunan yeni dövrü başlamışdır. Bu dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi olmuşdur. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac vardı və əlbəttə, könüllüyün mühüm önəm daşıması danılmaz idi.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən davam etdirilən gənclər siyasətinin bariz nəticələrindən biri də Azərbaycanda olan könüllülük hərəkatıdır. Ölkəmizdə Könüllülük hərəkatı ASAN xidmət mərkəzlərində başlamış və çox geniş yayılmışdır.

Könüllülük insansevərlik, vətənsevərlik, əməksevərlik göstəricisidir. Könüllü olmaq mənəvi dəyərlərin daşıyıcısı olmaqdır. Könüllülük fərqli düşüncələrə bərabər saygı bəsləməkdir. Könüllülük cəmiyyəti yaxşılığa doğru dəyişdirməyə, vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə verməyə şərait yaradan bir hərəkat, görülən bütün işlərin timsalında cəmiyyəti irəli aparmağa hədəflənmiş bir fəaliyyət sahəsidir. Könüllü xidmət ictimai həyatda iştirak, həyat bacarıqlarının inkişaf etdirilməsi, fərqli mədəniyyətlərə inteqrasiya, təhsilin inkişaf etdirilməsi, fərdlərin inkişafına fayda vermək baxımından əhəmiyyətlidir. Könüllülük fəaliyyəti yeni təcrübə, dünyagörüşü, sosiallaşma, uğurlu karyera yolu, ətrafda baş verən hadisələrə daha həssas yanaşma, komandada işləmə və ünsiyyət qurma bacarığı sahəsində insanlara özlərini inkişaf etdirməyə yardımçı olur. Könüllülük fəaliyyəti şəffaflığı, operativliyi, məsuliyyəti, mənəvi zənginliyi təmin edir, gülərüz və səbirli olmağı aşılayır.

Könüllülük bu gün ayrıca bir sahə kimi formalaşmış və bu sahənin öyrənilməsi, mənimsənilməsi üçün dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza yaradılmışdır. Azərbaycanda könüllülük fəaliyyətinin yeni inkişaf mərhələsində Azərbaycan Respublikasının "Könüllülük fəaliyyəti" haqqında 2009-cu il 9 iyun tarixli Qanununun mühüm rolu vardır. Qanuna görə könüllü fəaliyyət - Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir (m.2.1). Könüllü - öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənil-

məyən ictimai faydalı fəaliyyəti şəxsən həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.(m.2.2).

Bu Qanunun 2.3-cü maddəsinə əsasən könüllü fəaliyyətin təşkilatçısı- könüllü fəaliyyətin təşkilini və həyata keçirilməsini təmin edən dövlət orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatlarıdır. Könüllü fəaliyyətinin təşkilatçılarının və könüllülərin hüquqları və vəzifələri "Könüllülük fəaliyyəti" haqqında Qanunla tənzimlənir.

Gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" 20 dekabr 2019-cu il tarixli Sərəncamı da çox böyük önəm daşıyır. Prezident İlham Əliyev Kürdəmir ASAN xidmət mərkəzinin açılışında könüllülərlə görüşü zamanı söylədiyi nitqində bir daha bugünkü dövrdə könüllülərin mühüm önəm daşıdığını, könüllülərin getdikcə bütün fəaliyyət sahələrinə axın etdiyini, könüllülük kimi dəyərin xalqın milli ruhundan qaynaqlandığını bildirmişdir.

Azərbaycanda könüllülük hərəkatının genişlənməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və "Heydər Əliyev Fondu"nun vitse-prezidenti Leyla xanım Əliyevanın da rolu çox böyükdür. Onların təşəbbüsü ilə həyata keçirilən bir çox layihələrə könüllü gənclər qoşulmuş və bu layihələrin həyata keçirilməsinə öz töhfələrini vermişlər.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən könüllülər institutunun genişləndirilməsinə, gənclərə peşə vərdişləri aşılamasına, onların ədliyyə sistemində könüllülük işinə cəlb olunmasına daim diqqət yetirilərək Nazirliyin Kollegiyası tərəfindən 2016-cı ilin oktyabr ayında qərar qəbul edilmiş, gənclərin ədliyyə sahəsində könüllü fəaliyyətə daha geniş cəlb olunması məqsədilə tədbirlər planı təsdiq olunmuş, ədliyyə orqanları və könüllülər arasında münasibətləri tənzimləyən nümunəvi müqavilə, həmçinin müraciət formaları hazırlanmışdır. Nazirliyin internet saytında ayrıca bölmə yaradılaraq zəruri məlumatlar orada yerləşdirilmiş, könüllülərə birbaşa elektron qaydada müraciət etmək imkanları yaradılmışdır.

Həmçinin, nazirliklə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında könüllü fəaliyyət sahəsində geniş əlaqələr mövcuddur, habelə ölkəmizin müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları ilə səmərəli əlaqələr qurularaq, yüzlərlə gənclər ədliyyə orqanlarında və məhkəmələrdə könüllü fəaliyyətə cəlb olunmuş, onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər təşkil edilmiş və fərqlənən könüllülər daimi əsaslarla ədliyyə orqanlarında işə götürülmüşlər.

Bu gün könüllülər Ədliyyə Nazirliyinin müxtəlif qurumlarında, o cümlədən aparatında səmərəli fəaliyyət göstərirlər. Onlar öz gələcək karyeralarını qurmaları üçün zəruri peşə vərdişlərinə həvəslə yiyələnir və təcrübi biliklər əldə edirlər.

Eyni zamanda ədliyyə könüllülərinin nazirliyin rəhbərliyi ilə mütəmadi görüşləri keçirilir, fəaliyyət göstərdikləri sahələr üzrə təşəbbüsləri, innovativ ideyaları və təklifləri dinlənilir, qayğıları ilə maraqlanılır.

Könüllülərlə bağlı atılan uğurlu addımlardan biri də "Ədliyyə könüllüləri" İctimai Birliyinin yaradılması və fəaliyyətə başlaması olmuşdur.

Könüllülük hərəkatının inkişafında, arzuolunan məqsədlərə çatılmasında bələdiyyələr də öz töhfələrini verə bilərlər. Bələdiyyələr "Könüllülük fəaliyyəti" haqqında Qanunun tələblərini, Azərbaycan Respublikası Prezidentinin Sərəncamını rəhbər tutaraq öz fəaliyətlərində könüllülərdən istifadə etməklə yerli özünüidarəetmə sahəsində könüllülük institutunun inkişafına təkan verməyə çalışmalıdırlar. Bələdiyyələrə könüllüləri cəlb etməklə gələcəkdə yerli özünüidarəetmə orqanları üçün potensial işçi qüvvəsinin yaranmasına kömək etmək olar.

Yerli özünüidarəetmə orqanlarına könüllülərin cəlb olunması məqsədi ilə Bələdiyyələrlə İş Mərkəzi tərəfindən ayrıca tövsiyə hazırlanaraq bələdiyyələrə göndərilmiş, bələdiyyələrə könüllülük işinin məqsəd və vəzifələri bir daha izah olunaraq onlara bu mühüm sahəyə diqqətin artırılması tövsiyə olunmuşdur.

## Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son aylarda dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir. Bu məqsədlə, əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi, sosial həmrəylik nümayiş etdirməsi görülən işlərin səmərəliliyinə bilavasitə təsir edən xüsusi əhəmiyyətli məsələlərdən olmaqla, korporativ sosial məsuliyyəti, dövlət - vətəndaş birliyini əks etdirən əsas faktorların bariz göstəricisidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə koronavirus infeksiyasına qarşı preventiv addımlar atılması və mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılsın.

2. "Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 19 mart 2020-ci il*
N 963

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 963 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

## Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə

# QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Koronavirusla Mübarizəyə Dəstək Fondunun (bundan sonra - Fond) vəsaitinin formalaşdırılması, idarə olunması və həmin vəsaitdən istifadə ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Fondun məqsədi Azərbaycan Respublikasında koronavirus infeksiyasının (bundan sonra - koronavirus) yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə

maliyyə dəstəyini təmin etməkdən ibarətdir.

1.3. Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Nazirlər Kabinetidir.

**2. Fondun vəsaitinin formalaşdırılması və ondan istifadə**

2.1. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

2.1.1. Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti;

2.1.2. fiziki və hüquqi şəxslərin könüllü ödəmələri;

2.1.3. qanunla qadağan olunmayan digər mənbələr.

2.2. Fondun vəsaitinin toplanması və ondan təyinatı üzrə istifadə məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində xüsusi xəzinə hesabı açılır.

2.3. Fondun vəsaitindən istifadə bu Qaydanın 2.7-ci bəndində nəzərdə tutulan xərc istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi gəlir və xərclər smetası əsasında həyata keçirilir.

2.4. Fondun fəaliyyət müddəti 2020-ci il dekabrın 31-dək olan dövrü əhatə edir. Bu müddət Azərbaycan Respublikası Prezidenti tərəfindən uzadıla bilər.

2.5. Fondun fəaliyyəti başa çatdıqdan sonra xüsusi xəzinə hesabında qalan xərclənməmiş vəsait bu Qaydanın 2.7.1-ci yarımbəndində nəzərdə tutulan işlərin maliyyələşdirilməsinə yönəldilir və ya dövlət büdcəsinə qaytarılır.

2.6. Fondun vəsaiti Azərbaycan manatı ilə və xarici valyutalarla formalaşdırılır.

2.7. Fondun vəsaitindən koronovirusla mübarizə üzrə aşağıdakı istiqamətlərdə istifadə olunur:

2.7.1. tibb sahəsində çalışan işçilərin mükafatlandırılmasına və onlara maddi yardım göstərilməsinə;

2.7.2. tibb müəssisələrinin infrastrukturunun təkmilləşdirilməsinə və maddi-texniki bazasının gücləndirilməsinə (o cümlədən texnoloji qurğuların, cihazların, avadanlığın, nəqliyyat vasitələrinin, mal və materialların, habelə digər tibbi ləvazimatın alınmasına);

2.7.3. xüsusi rejimli tibb müəssisələrinin formalaşdırılmasına;

2.7.4. nəzarət və monitorinqlərin təşkilinə və həyata keçirilməsinə;

2.7.5. tibb sahəsində elmi tədqiqat işlərinin maliyyələşdirilməsinə;

2.7.6. tibb sahəsində mütəxəssislərin hazırlanmasına;

2.7.7. təbliğat və maarifləndirmə işlərinə;

2.7.8. koronavirusla mübarizə istiqamətində həyata keçirilən digər tədbirlərə.

2.8. Fondun vəsaitindən bu Qaydada nəzərdə tutulmayan məqsədlər üçün istifadə edilə bilməz.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 147, 152, 162,

N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1168, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddədə "204-208," rəqəmlərindən sonra "211," rəqəmləri əlavə edilsin.

2. 211-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 211. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması**

Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə -

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər iki min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

3. 388-1-ci maddə üzrə:

3.1. maddənin adında və 388-1.1.1-ci maddənin dispozisiyasında "ehtiyatında" sözündən sonra "və ya informasiya-telekommunikasiya şəbəkəsində" sözləri əlavə edilsin;

3.2. 388-1.1-ci maddənin dispozisiyasında "sahibi" sözündən sonra "və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi" sözləri əlavə edilsin;

3.3. 388-1.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər beş yüz manatdan min manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 17 mart 2020-ci il*
*N 27-VIQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10,

maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N7, maddə 591; 2011, N4, maddə 253, N 6, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4 maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697,700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12 (I kitab), maddə 2472; 2019, N4, maddə 586, N7, maddə 1201, N 8, maddə 1367) aşağıdakı məzmunda 139-1-ci maddə əlavə edilsin:

"Maddə 139-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması

139-1.1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda -

iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

139-1.2. Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda -

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 17 mart 2020-ci il*
*N 28-VIQD*

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Şəki Apellyasiya Məhkəməsinin hakimi Mirbahəddin Hüseynov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Kəmalə Paşayevanın,

mütəxəssislər Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi İlqar Cəfərov və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəis müavini Musa Hümbətovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəki Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) ünvanladığı müraciətdə göstərmişdir ki, Zərdab Rayon Məhkəməsinin 3 sentyabr 2019-cu il tarixli hökmü ilə V.Quliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 234.1-ci maddəsi ilə təqsirli bilinərək 2 il müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, həmin Məcəllənin 69.3-cü maddəsinə əsasən üzərində 1 il 5 ay 12 gün müddətinə azadlığın məhdudlaşdırılması cəzası saxlanılmışdır.

Azərbaycan Respublikası Baş Prokurorunun müavini Zərdab Rayon Məhkəməsinin 3 sentyabr 2019-cu il tarixli hökmündən apellyasiya protesti verərək həmin hökmün dəyişdirilməsini xahiş etmişdir. Apellyasiya protesti onunla əsaslandırılmışdır ki, V.Quliyev Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin (bundan sonra - Ağır Cinayətlərə dair işlər üzrə Məhkəmə) 21 fevral 2007-ci il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 234.4.1-ci maddəsi ilə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, 10 iyun 2013-cü il tarixində "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 7 may 2013-cü il tarixli Qərarının (bundan sonra - Qərar) 1.1-ci bəndinə müvafiq olaraq cəzadan azad olunmuşdur.

Protestverənin mövqeyinə görə, V.Quliyev ikinci cinayət əməlini 23 may 2019-cu il tarixində törədərkən onun əvvəlki məhkumluğu ödənilməmiş və götürülməmişdir. Bu səbəbdən də onun əməlində cinayətlərin residivi mövcud olmuşdur.

Belə ki, Cinayət Məcəlləsinin 18.1-ci maddəsinə uyğun olaraq, qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətin residivini yaradır.

Həmin Məcəllənin 61.1.1-ci maddəsinə görə, cinayətlərin residivi cəzanı ağırlaşdıran haldır.

Cinayət Məcəlləsinin 65.2-ci maddəsinə əsasən, residivə görə cəzanın müddəti törədilmiş cinayətə görə Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş daha ciddi cəza növünün son həddinin yarısından, təhlükəli residivə görə üçdə ikisindən, xüsusi təhlükəli residivə görə isə dörddə üçündən az ola bilməz.

V.Quliyev də Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin 21 fevral 2007-ci il tarixli hökmünə əsasən Cinayət Məcəlləsinin 234.4.1-ci maddəsi ilə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, Qərarın 1.1-ci bəndinə əsasən 10 iyun 2013-cü il tarixində cəzadan azad olunmuşdur. Yəni V.Quliyev Qərarın qüvvəyə mindiyi 7 may 2013-cü il tarixində cəzadan azad edilmiş olsaydı, 23 may 2019-cu il tarixində Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə törətdiyi

cinayətə görə residiv yaranmayacaqdı.

Protestverən hesab edir ki, V.Quliyevin Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin 21 fevral 2007-ci il tarixli hökmü üzrə Cinayət Məcəlləsinin 234.4.1-ci maddəsi ilə yaranmış məhkumluğunun ödənilməyə başlanılması müddəti ona tətbiq olunmuş amnistiya aktının qəbul edildiyi 7 may 2013-cü il tarixindən deyil, həmin amnistiya aktının ona münasibətdə icra edildiyi 10 iyun 2013-cü il tarixindən hesablanmalıdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Şəki Apellyasiya Məhkəməsi vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə Cinayət Məcəlləsinin 83.4-cü maddəsinin "məhkum edilmiş şəxs qanunla müəyyən edilmiş qaydada vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti əsas və əlavə cəzanı çəkməkdən azad edildiyi vaxtdan hesablanır" müddəasının amnistiya aktının tətbiqi əsasında cəzadan azad edilmiş məhkumlara münasibətdə Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60 və 71-ci maddələri, eləcə də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6 və 7-ci maddələri baxımından şərh edilməsini Konstitusiya Məhkəməsindən xahiş etmişdir.

Müraciətdə qaldırılan məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir. Bu vəzifələri həyata keçirmək üçün Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş institutlardan biri olan cəzadan azad etmənin əsasları həmin Məcəllənin bir neçə maddəsində nəzərdə tutulmuşdur. Bu əsaslara cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, xəstəliyə görə cəzanı çəkməkdən azad etmə, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə, amnistiya və əfvetmə aiddir (Cinayət Məcəlləsinin 76-82-ci maddələri).

Cəzadan azad etmənin digər növlərindən fərqli olaraq, amnistiya və əfvetmənin tətbiqi ali dövlət orqanlarının səlahiyyətlərinə aid olduğundan onlar Konstitusiyada öz əksini tapmışdır. Konstitusiyanın 65-ci maddəsinə əsasən, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır. Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndinə görə, əfv etmə səlahiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 19-cu bəndinə müvafiq olaraq amnistiya məsələlərinin həlli Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aiddir.

Amnistiya və əfvetmə hüququ təbiətinə görə humanizm, mütənasiblik prinsipləri və cinayətkarlıqla mübarizə sahəsində konstitusiya dəyərlərinin tarazlığı nəzərə alınmaqla dövlət tərəfindən həyata keçirilən mərhəmət aktıdır. Bu konstitusiya səlahiyyətinin həyata keçirilməsi nəinki siyasi və iqtisadi məqsədəuyğunluqdan, ilk növbədə ədalət və xeyirxahlığa olan inamdan, belə humanist addımın sosial şərtləndirilməsindən irəli gəlir. Bununla belə həmin səlahiyyətlər həyata keçirilərkən Konstitusiyadan irəli gələn insan hüquqlarının birbaşa qüvvəsi, sağlamlıq, mənəviyyat, ictimai asayişin qorunması, təhlükəsizlik və s. dəyərlərə xüsusi diqqət yetirilməlidir.

Konstitusiya Məhkəməsinin

Plenumu vurğulayır ki, əfvetmə və amnistiya aktları hökmlərin qanuniliyi və ədalətliliyini şübhə altına almır. Belə ki, amnistiya və əfvetmə şəxsə bəraət qazandıran və cinayətin törədilməsi faktını aradan götürən hal deyil, barəsində tətbiq ediləcəyi şəxsə göstərilən humanizmin təzahürüdür.

Cinayət Məcəlləsinin 81-ci maddəsinə əsasən, amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

Məcəllənin 82-ci maddəsinə uyğun olaraq, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrum etmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilə bilər. Əfvetmə aktı ilə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Cinayət Məcəlləsinin 83.1-ci maddəsinə əsasən, cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir. Cinayətlərin residivi zamanı və cəza təyin edilərkən bu Məcəlləyə uyğun olaraq məhkumluq nəzərə alınır.

Məhkumluq yalnız şəxsin məhkum olunması və ona cəzanın təyin edilməsi faktı ilə şərtləndirilmir. Məhkumluq şəxs tərəfindən təkrarən cinayət törədilərkən cinayət qanunvericiliyi ilə müəyyən olunmuş hüquqi nəticələrə səbəb olan məhkumun hüquqi vəziyyətini ifadə edir; şəxsdə olan ödənilməmiş və ya götürülməmiş məhkumluq xüsusi, onunla dövlət arasında cinayət-hüquqi tənzimləmə əsasında formalaşan, bu şəxs tərəfindən yeni cinayətlər törədilərkən onun şəxsiyyətinin və törətdiyi cinayətlərin yüksək ictimai təhlükəli kimi qiymətləndirilməsinə xidmət edən ictimai-hüquqi münasibətləri yaradır və buna görə onun barəsində cinayət hüquqi xarakterli daha ağır tədbirlərin tətbiqini nəzərdə tutur (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83-cü maddəsinin şərh edilməsinə dair" 2009-cu il 25 may tarixli Qərarı).

Cinayət qanunvericiliyində cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq, habelə yetkinlik yaşına çatmayan şəxslər barəsində fərqli məhkumluğun ödənilməsi müddətləri nəzərdə tutulmuşdur. Belə ki, Cinayət Məcəlləsinin 83.3-cü maddəsinə müvafiq olaraq, böyük ictimai təhlükə törətməyən cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən bir il keçdikdə, az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən iki il keçdikdə, ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən altı il keçdikdə, xüsusilə ağır cinayət törətməyə görə məhkum edilmiş şəxslər barəsində isə onlar cəzanı çəkib qurtardıqları gündən səkkiz il keçdikdə məhkumluq ödənilmiş hesab olunur.

Məhkum edilmiş şəxs qanunla müəyyən edilmiş qaydada vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə və yaxud cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə, məhkumluğun ödənilməsi müddəti əsas və əlavə cəzanı çəkməkdən azad edildiyi vaxtdan hesablanır (Məcəllənin 83.4-cü maddəsi).

Məcəllənin bu normasının

mənasından da göründüyü kimi, amnistiya aktı əsasında əsas cəzasını çəkməkdən vaxtından əvvəl azad edilmiş şəxsin əlavə cəzası olduğu hallarda məhkumluğun ödənilməsi müddəti əlavə cəzanın çəkilib qurtardığı vaxtdan hesablanır.

Məhkəmə tərəfindən təyin edilən cəzaların icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi qaydalarını və şərtlərini müəyyən edən Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 6-cı maddəsinə görə, cəzaların icrasının və cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqinin əsaslarını məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, qərarları, habelə amnistiya və ya əfvetmə aktları təşkil edir. Həmin Məcəllənin 167.0.5-ci maddəsində göstərilmişdir ki, digər əsaslarla yanaşı məhkumlar cəza çəkməkdən amnistiya və ya əfvetmə aktına əsasən azad edilirlər.

Hər iki akt birdəfəlik tətbiqetmə üçün nəzərdə tutulsa da, əfvetmə yalnız qanuni qüvvəyə minmiş hökm əsasında məhkum edilmiş şəxslərə münasibətdə, amnistiya aktı isə cinayət prosesinin istənilən mərhələsində tətbiq edilə bilər.

Bu aktlar arasında daha bir fərq ondan ibarətdir ki, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxslər, amnistiya isə fərdi qaydada müəyyən olunmayan şəxslər dairəsi barəsində qəbul edilir. Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu aktların subyektiv tərkibinin müəyyən olub-olmaması baxımından onların tətbiq edilmə formaları da fərqlənir.

Əfvetmə müraciət əsasında tətbiq edildiyindən, məhkum edilmiş şəxsin işi Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası tərəfindən araşdırılır, onun əfv edilməsinin mümkünlüyü barəsində müvafiq qurumların rəyləri alınır, baxılmış sənədlər qəti qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş "Əfvetmə haqqında Əsasnamə"nin 36-cı bəndinə uyğun olaraq, cəzanı icra edən orqan əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamını təxirə salınmadan icra etməlidir.

Qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanan amnistiyanın elan edilməsi isə birbaşa olaraq cinayəti törədən şəxsin hüquqi vəziyyətini dəyişmir. Bu akt konkret şəxslərin dəqiq hüquq və vəzifələrini deyil, müvafiq şəxslər dairəsinin hüquqi statusunun dəyişməsini şərtləndirən hüquqi faktları müəyyən edir. Belə ki, müəyyən bir şəxsə münasibətdə amnistiya aktının tətbiq edilməsi üçün əsasların olub-olmaması yoxlanıldıqdan sonra hüquqtətbiqedici tərəfindən müvafiq qərar qəbul edilməlidir.

Beləliklə, amnistiya aktının onun təsiri altına düşən şəxslər barəsində tətbiq edilib-edilməməsinin mümkünlüyünün yoxlanılması Qərarla müəyyən edilmiş müvafiq orqan tərəfindən həyata keçirilir.

Yuxarıda qeyd edildiyi kimi, V.Quliyev 10 iyun 2013-cü il tarixində Qərarın 1.1-ci bəndinə əsasən cəzadan azad olunmuşdur.

Həmin Qərarın 15-ci bəndinə əsasən, Qərarın 1.1 və 2-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində amnistiya cəzaçəkmə müəssisələri, 1.2, 1.3 və 4.1-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı, 1.4-1.7 və 4.2-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində icra məmurları tərəfindən tətbiq edilir. Qərarın 1.8, 3, 4.3-4.5-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində isə amnistiyanın tətbiq edilməsi məsələsinə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

Qərarın 16-cı bəndinə uyğun olaraq, 15.1-15.3-cü bəndlərində nəzərdə tutulmuş orqanlar amnistiya tətbiq edərkən, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydalara riayət etməklə, qərarları müvafiq prokurorlarla razılaşdırmalıdırlar.

Qərarın 21-ci bəndinə görə isə bu Qərar onun təsiri altına düşən hər bir şəxs barəsində ayrı-ayrılıqda tətbiq edilir.

Amnistiya tətbiq edilərkən məhkumun şəxsi işi öyrənilməli və amnistiyanın tətbiqi məsələlərinin həlli üçün zəruri sənədlər göstərilən qərara əlavə edilməlidir. Amnistiyanı tətbiq edən orqanlar amnistiyanın tət-

biqi barədə qərar qəbul edilməsi üçün zəruri sənədləri müvafiq orqanlardan tələb etməyə haqlıdırlar. Bu sorğular dərhal icra edilməlidir (Qərarın 22-ci bəndi).

Qeyd edilməlidir ki, amnistiya haqqında yuxarıda göstərilən Qərar dərc olunduğu gündən qüvvəyə minmiş və onun həmin gündən dörd ay müddətində tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, amnistiya aktının dərc olunduğu gündən qanuni qüvvəyə minməsi, aktın barəsində tətbiq ediləcək şəxslərin hüquqi statusunun həmin gündən dəyişməsini nəzərdə tutmur. Amnistiya aktının dərc edildiyi gündən qanuni qüvvəyə minməsi barəsində tətbiq edilən şəxslərin dairəsinin müəyyən edilməsi və aktın tətbiq edilməsi üçün nəzərdə tutulmuş müddətin axımının başlanması üçün zəruri olan zamanı ifadə edir.

Yuxarıda göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti amnistiyanın həmin şəxs barəsində tətbiq edildiyi, yəni müvafiq səlahiyyətli orqan tərəfindən konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərar qəbul edildiyi gündən hesablanmalıdır.

Bununla belə Konstitusiya Məhkəməsinin Plenumu onu da vurğulayır ki, amnistiyanın tətbiq edilməsinə dair qərar barəsində tətbiq olunacaq şəxslər üçün mühüm hüquqi nəticələr yaratdığından, səlahiyyətli orqanların belə işlərə mümkün qədər qısa müddət ərzində baxmaları məqsədəmüvafiqdir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- Cinayət Məcəlləsinin 83.4-cü maddəsinə uyğun olaraq, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti şəxsin cəzanı çəkməkdən azad edildiyi, yəni səlahiyyətli orqanın konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərarının qüvvəyə mindiyi gündən hesablanmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.4-cü maddəsinə uyğun olaraq, məhkum edilmiş şəxs amnistiya aktı əsasında vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə, məhkumluğun ödənilməsi müddəti şəxsin cəzanı çəkməkdən azad edildiyi, yəni səlahiyyətli orqanın konkret şəxs barəsində amnistiya aktının tətbiq olunması barədə qərarının qüvvəyə mindiyi gündən hesablanmalıdır.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 3 mart 2020-ci il*